**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№348/4** **03 oktyabr 2022-ci il**

**Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlara dair məlumat barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)” 8-ci “İnnovativ auditin genişləndirilməsi” bölməsinin 28-ci “Kiçik və orta auditor təşkilatları və sərbəst auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqram təminatının hazırlanması və auditorun şəxsi kabineti sisteminə inteqrasiya olunması” altbəndinə və Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.9-cu “Kiçik və orta auditor təşkilatları və sərbəst auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramların əldə edilməsi və təşviqi” bəndinin icrası məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov və həmin idarənin Keyfiyyətə nəzarət şöbəsinin müdiri F.Axundova tərəfindən hazırlanmış “Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlar” barədə məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlar” barədə məlumat bəyənilsin (əlavə olunur).

2. Cari ilin 30 sentyabr tarixində “Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlar” barədə seminarın keçirilməsi nəzərə alınsın (moderatorlar – Q.Bayramov, F.Qarayev, məruzəçi – Q.Əhmədov).

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlar” barədə məlumatın auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki:

4.1. cari ilin IV rübündə “Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlar” barədə seminarın keçirilməsi təmin edilsin;

4.2. bu qərarın və hazırlanmış məlumatın mətnlərinin Palatanın internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**